*Allahyarova Aynurə Fazil qızı, dissertant,*
*Aqrar Tədqiqatlar Mərkəzi,*
*Email: aynurafazil@mail.ru*

# ƏRZAQ BAZARINDA TARAZLIĞIN TƏMİN EDİLMƏSİNİN ZƏRURİLİYİNİN ƏSASLANDIRILMASI

**Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyi.** Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini məhz aşağıdakı faktorlarla əsaslandırmaq mümkündür, daha doğrusu, ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyi aşağıdakı arqumentlərlə sıx əlaqədardır:

- ərzaq bazarında tarazlığın təmin edilməsinin strateji arqumentləri;
- ərzaq bazarında tarazlığın təmin edilməsinin makroiqtisadi aspektləri;
- ərzaq bazarında tarazlığın təmin edilməsinin mikroiqtisadi aspektləri;
- ərzaq bazarında tarazlığın təmin edilməsinin sosial aspektləri.

Yuxarıda adı çəkilən arqumentlər ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən amillər kimi çıxış etməklə yanaşı, eyni zamanda, ərzaq bazarının qorunmasının, eləcə də ölkənin ərzaq təminatının yaxşılaşdırılmasının və bütövlükdə dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas arqumentləri sayıla bilər.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini əsaslandıran aparıcı arqument strateji amillərlə bağlıdır. Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtldəndirən strateji arqument yuxarıda qeyd etdiyimiz kimi, dövlətin strateji maraqları ilə səciyyələnir. Dövlətin strateji maraqları isə məlum olduğu kimi, aqrar sahədə dövlətin iqtisadi təhlükəsizliyinin qorunması, daha doğrusu, dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə əsaslandırılır.

**Ərzaq bazarında tarazlığın təmin edilməsi ilə ərzaq təhlükəsizliyinin əlaqələndirilməsi.** Dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi kifayət qədər mürəkkəb və kompleks tədbirlərin həyata keçirilməsi zərurətini özündə əks etdirir və ərzaq təhlükəsizliyinin təmin edilməsi bir sıra amillərlə yanaşı, eyni zamanda, ərzaq bazarında tarazlığın təmin edilməsindən də bilavasitə asılıdır.

Respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ilk araşdırmaçılardan olan i.e.d. Anar Abbasovun fikrincə, ərzaq təhlükəsizliyi dövlətin iqtisadi təhlükəsizliyinin ən mühüm və aparıcı tərkib elementlərindən biri olub, dövlətin strateji prioritetlərinin təmin olunmasında özünəməxsus rola malikdir. Ərzaq təhlükəsizliyi bütün dövrlərdə, hətta dövlətsiz cəmiyyətlərdə belə öz aktuallığını saxlamış və cəmiyyət üzvlərinin fiziki cəhətdən öz mövcudluqlarının qorunub saxlanılmasında mühüm faktor rolunu oynamışdır.

Ərzaq təhlükəsizliyi iqtisadiyyatın elə bir vəziyyətini özündə əks etdirir ki, mövcud imkanlar hesabına əhalinin fəal və sağlam həyat tərzi keçirməsi üçün zəruri həcmdə ərzaq məhsullarına olan tələbatı təmin etmək mümkün olsun. Ərzaq təhlükəsizliyi hər bir vətəndaşın ərzaq istehlakı səviyyəsindən bilavasitə asılı olmaqla, həm mikro və həm makro, həm də qlobal səciyyə daşıyır. Ərzaq təhlükəsizliyinin mikro səciyyə daşıması hər bir fərdin yaşamaq imkanları ilə xarakterizə olunur. Təbii ki, makro aspektlər ölkənin ümumi inkişaf səviyyəsi, qlobal aspektlər isə beynəlxalq münasibətlər və dünyada baş verən geosiyasi dəyişikliklərlə bilavasitə bağlıdır. Ərzaq təhlükəsizliyi həm

xroniki və həm də müvəqqəti dövri olaraq özünün kəskinlik mərhələsini yaşayır. Ərzaq təhlükəsizliyinin xaotik xroniki xarakter daşıması, adətən, inkişaf etməkdə olan ölkələr üçün səciyyəvi hal hesab olunur. Bu proses həmin ölkələrdə iqtisadi inkişaf səviyyəsinin aşağı olması, eyni zamanda, büdcə imkanlarının məhdudluğu, kənd təsərrüfatında və onunla bağlı digər sahələrdə intensiv texnologiyaların tətbiqinin aşağı səviyyədə olması, infrastrukturun zəif inkişafı, əhalinin alıcılıq qabiliyyətinin, yerli ərzaq istehsalının rəqabətədavamlılığının keyfiyyətinin aşağı olması və s. çoxsaylı faktorlarla bağlıdır. [2.s. 178-181]

İ.e.d. A.Abbasovun fikirləri ilə razılaşmaqla yanaşı, həm də onun fikirlərini dəstəkləmək baxımından ifadə etmək istəyirik ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi, həm də məhsulun reallaşdırılması şərtlərindən də bilavasitə asılıdır. Bu baxımdan ərzaq bazarında tarazlığın təmin edilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində ərzaq bazarının maddi əsasını təşkil edən əmtəə təklifinin xüsusilə yerli əmtəə təklifinin iqtisadi cəhətdən stimullaşdırılması mühüm əhəmiyyətə malikdir. Ərzaq bazarında təklifin səviyyəsinin artırılması istiqamətində həyata keçirilən tədbirlər, ilk növbədə, qiymətlərin səviyyəsinin istehlakçılar üçün əlverişli olmasına gətirib çıxarır. Məlum olduğu kimi, ərzaq bazarında tələbin səviyyəsi xüsusilə elastik xarakter daşıyır və belə bir şəraitdə tələbin səviyyəsinin artmasına istiqamətlənmiş adekvat tədbirlərin həyata keçirilməsi məhz yerli təklifin həcminin artırılması ilə sıx bağlıdır. Yerli təklifin həcminin artırılması isə ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır.

**Ərzaq bazarında tarazlığın təmin edilməsi ilə daxili bazarın qorunması arasında əlaqə.** Ərzaq bazarında tarazlığın təmin edilməsinin obyektiv zəruriliyini şərtləndirən strateji arqumentlər içərisində, eyni zamanda, daxili bazarın qorunmasına yönəldilmiş tədbirlərin də mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmək mümkündür. Belə ki, adı çəkilən strateji arqumentlər içərisində daxili bazarın qorunmasına istiqamətlənmiş tədbirlər daxili ərzaq bazarının qorunmasında əhəmiyyətli rol oynayır və bütün bunlar, eyni zamanda, ərzaq bazarında yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldliməsi ilə sıx bağlıdır. Ərzaq bazarında rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər həm tarazlığın təmin edilməsinə əhəmiyyətli təsir göstərir, həm də ərzaq bazarında yerli məhsulun xüsusi çəkisinin yüksəldilməsinə gətirib çıxarır. Bütün bunlar ərzaq təhlükəsizliyinin təmin edilməsində də mühüm rola malikdir [1].

Ərzaq təhlükəsizliyinin təmin edilməsinin ən başlıca meyarı ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksməldilməsi ilə sıx bağlıdır. Yerli ərzaq məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi hesabına ərzaq bazarında əmtəə təklifinin həcmini artırmaq mümkündür ki, bu da ərzaq bazarında artmaqda olan tələbin səviyyəsinin yüksəlməsinə adekvat reaksiya göstərməsi deməkdir. Məhz belə bir şəraitdə qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə nail olmaq mümkündür. Ərzaq bazarında tarazlı situasiyanın yaranması eyni zamanda idxal kanallarından asılılığın neytrallaşdırılması deməkdir. Bu isə beynəlxalq bazar konyunkturunda baş verən dalğalanmalardan yerli ərzaq bazarının etibarlı şəkildə sığortalanmasını şərtləndirən başlıca amillərdən biri hesab edilir. Məhz tarazlı ərzaq bazarını formalaşdırmaq, eyni zamanda tarazlı qiymət səviyyəsini müdafiə etmək dövlətin strateji məqsədlərindən biri hesab edilməklə yanaşı eyni zamanda həm dövlətin sosial siyasətinin və həm də aqrar siyasətin başlıca vəzifələrindən biri hesab edilir.

**Ərzaq bazarında tarazlığın təmin edilməsinin makro və mikroiqtisadi aspektləri.** Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən arqumentlər içərisində makroiqtisadi amillər də əhəmiyyətli rol oynayır. Makroiqtisadi amillər, ilk növbədə, ərzaq bazarında əmtəə təklifinin əsasını təşkil edən yerli məhsulların iqtisadi cəhətdən istehsalının stimullaşdırılmasını özündə əks etdirir. Makroiqtisadi amillər, ilk növbədə, yerli əmtəə istehsalçılarının stimullaşdırılmasını nəzərdə tutmaqla yanaşı, eyni zamanda, makroiqtisadi baxımdan cəmiyyətdə sabitliyin yaranmasının başlıca ilkin şərti hesab edilir. Makroiqtisadi sabitliyin təmin edilməsi bir sıra amillərlə yanaşı, eyni zamanda, ərzaq bazarında tarazlığın təmin edilməsindən də bilavasitə asılıdır. Makroiqtisadi sabitlik və makroiqtisadi tarazlıq əsas etibarı ilə ərzaq bazarında tarazlığın təmin edilməsi ilə sıx bağlı olmaqla yanaşı, həm də cəmiyyətdə sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasının başlıca ilkin şərtidir.

Ərzaq bazarında tarazlığın təmin edilməsi, eyni zamanda, cəmiyyətdə sosial şəraitin yaxşılaşdırılmasını özündə ehtiva edir. Cəmiyyətdə sosial sabitliyin təmin edilməsi isə cəmiyyət üzvlərinin, xüsusilə aztəminatlı əhali kateqoriyalarının əlyetərli qiymətə ərzaq məhsulları əldə etmək imkanlarından da bilavasitə asılıdır. Makroiqtisadi tarazlığın təmin edilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində həm yerli əmtəə istehsalçılarının maraqlarının müdafiə edilməsi və həm də istehlakçıların əlyetərli qiymətə məhsul reallaşdırmaq imkanları mühüm rolla malikdir.

Ərzaq bazarında tarazlığın təmin edilməsinin obyektiv zəruriliyini şərtləndirən amillər içərisində mikroiqtisadi faktorlar da mühüm rola malikdir. Cəmiyyətin bütün üzvləri ərzaq məhsullarını istehlak edir və həmin istehlak, ilk növbədə, yaşam ehtiyaclarının təmin edilməsi zərurəti ilə sıx bağlıdır. Nəzərə almaq lazımdır ki, ərzaq bazarını kənd təsərrüfatı və yeyinti məhsulları ilə təmin edən təsərrüfat subyektləri kənd təsərrüfatı əmtəə istehsalçıları və onlarla sıx bağlı olan yeyinti sənaye məhsullarının istehsalçıları hesab edilir. Adı çəkilən təsərrüfat subyektləri isə mikroiqtisadiyyatın ən böyük subyektləri hesab olunur.

Ərzaq bazarının maddi əsasını təşkil edən əmtəə istehsalçıları əsasən fiziki şəxs statuslu ailə təsərrüfatları, kooperativ strukturlar, yeyinti sənayesində məhsul istehsal edən təsərrüfat subyektləri və digər qurumlardır. Məhz ərzaq bazarında tarazlığın təmin edilməsi əmtəə təklifinin həcminin artırılması ilə sıx bağlı olduğundan ərzaq bazarında mövcud tarazlı şərtlərin qorunub saxlanılması ilk növbədə mikroiqtisadiyyatın subyektləri olan yerli əmtəə istehsalçılarının rentabelli fəaliyyət göstərməsinin başlıca ilkin şərti kimi çıxış edir. Məhz belə bir şəraitdə həmin mikroiqtisadiyyatın subyektləri sayılan fiziki şəxs statuslu təsərrüfat suybektləri, kooperativlər, fermer təsərrüfatları və digər qurumlar gələcəkdə geniş təkrar istehsal proseslərini uğurla həyata keçirə bilirlər ki, bu da onların müflisləşməsinin qarşısının alınması deməkdir.

Beləliklə, ərzaq bazarının subyektini təşkil edən qurumların müflisləşməsinin qarşısının alınmasına yönəldilmiş fəaliyyət, əslində, iqtisadiyyatın ən mühüm və strateji əhəmiyyətli sahəsi olan kənd təsərrüfatının davamlı inkişafının başlıca ilkin şərti kimi çıxış edir. Əslində, istehsal, mübadilə, eyni zamanda, bölgü və istehlak geniş təkrar istehsal prosesinin ən mühüm həlqələrini təşkil etdiyindən bütövlükdə ərzaq bazarının tarazlığının qorunmasına yönəldilmiş fəaliyyət həm istehsal-mübadilə, bölgü və həm də istehlak şərtlərinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır. Adı çəkilən mərhələlər kənd təsərrüfatında dəyər zəncirinin də mühüm tərkib hissəsini təşkil edir.

**Ərzaq bazarında tarazlığın təmin edilməsinin sosial arqumentləri**. Ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən ən mühüm arqumentlərdən biri sosial arqumentlər hesab edilir. Ərzaq bazarında mövcud durum ilk növbədə cəmiyyətin sosial şərtlərə, sosial dayanıqlığına əhəmiyyətli təsir göstərir. Cəmiyyət heç də yeknəsək aspektdən formalaşmış istehlakçı təbəqəsindən ibarət deyil. Belə ki, cəmiyyət üzvləri sosial qurumlarına görə həm yüksək istehlak imkanlarına malik, orta istehlak imkanlarına malik və aşağı istehlak imkanlarına malik təbəqələrdən formalaşır. Beləliklə, əslində ərzaq bazarında tarazlığın təmin edilməsi və eləcə də ərzaq bazarında əlyetərli qiymətə məhsulun istehlak olunma imkanlarının saxlanılması cəmiyyətin bütün təbəqələri üçün mövcud əlverişli şərtlərin formalaşdırılması deməkdir. Ərzaq bazarında tarazlığın təmin edilməsinə istiqfmətlənmiş fəaliyyət tarazlı qiymətlərlə aztəminatlı əhali təbəqələrinin ərzaq kənd təsərrüfatı və yeyinti məhsullarının istehlak imkanlarını yaxşılaşdırır ki, bu da cəmiyyətdə sosial sabitliyin qorunub saxlanılmasının başlıca ilkin şərti hesab edilir.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ərzaq bazarında tarazlığın təmin edilməsinin zəruriliyini şərtləndirən amillər strateji aspektdən dövlətin ərzaq müstəqilliyi və ərzaq təhlükəsizliyinin qorunması ilə sıx bağlı olmaqla yanaşı, eyni zamanda, makroiqtisadi və mikroiqtisadi amillərdən, sosial arqumentlərdən bilavasitə asılıdır.

Ölkə iqtisadiyyatının mühüm və strateji sahəsi olan aqrar sahə kifayət qədər mürəkkəb sahələrarası sistemdən, sosial-iqtisadi baxımdan səmərəli fəaliyyət göstərmək labüdlüyünə malik olan bir kompleksdən formalaşır, əhalinin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi, onun xarici bazarın əlverişsiz təzahürlərindən effektiv şəkildə qorunması cəmiyyət üzvlərinin həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsindən bilavasitə asılıdır. Ərzaq bazarında tarazlığın təmin edilməsi makro tələbin və makro təklifin səviyyəsindən bilavasitə asılıdır. Bu baxımdan yanaşdıqda ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir göstərən müxtəlif amillər mövcuddur ki, bu amillər bazarda həm tələbin səviyyəsinə, həm də təklifin səviyyəsinə təsir göstərir və bütövlükdə adı çəkilən amillər ərzaq bazarında konyunktur dalğalanmalarını xarakterizə edən ən mühüm arqumentə çevrilir.

Beləliklə, kənd təsərrüfatı və ərzaq məhsulları bazarında tarazlığın təmin edilməsi əslində kənd təsərrüfatı əmtəə istehsalçılarının istehsal-təsərrüfat fəaliyyətindən, eləcə də ərzaq məhsullarının idxalından, kənd təsərrüfatı məhsullarının satışından və reallaşdırılmasından, bütövlükdə kənd təsərrüfatında bazar münasibətlərinin inkişaf xarakterindən, məhsul istehsalı üçün yaradılan əlverişli şəraitdən, məhsul satışındakı çətinliklərin effektiv şəkildə aradan qaldırılmasından, ərzaq bazarında tələb və təklifin balansına təsir göstərən destruktiv və pozitiv imkanlardan, eləcə də yerli əmtəə istehsalçılarının rəqabət qabiliyyətindən bilavasitə asılıdır. Adı çəkilən proseslər əsas etibarilə ərzaq bazarında təklifin səviyyəsinə öz təsirini göstərir. Lakin nəzərə almaq lazımdır ki, ərzaq bazarında təklifin səviyyəsi ilə yanaşı ərzaq bazarında tarazlığın səviyyəsi də tarazlığın xarakterinə önəmli dərəcədə təsir göstərir. Ərzaq bazarında tələbin səviyyəsini şərtləndirən amillər ərzaq bazarının inkişafının strateji oriyentirlərindən biri olmaqla iqtisadi, sosial-demoqrafik və təbii iqlim faktorlarından bilavasitə qaynaqlanır.

**Ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir göstərən faktorlar.** Ərzaq bazarı iqtisadiyyatın və bütövlükdə cəmiyyətin ən mühüm və strateji əhəmiyyətli bir kəsimini təşkil edir. Bundan əlavə dövlətimizin özü beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunduğundan və eləcə də milli iqtisadiyyat beynəlxalq iqtisadi münasibətlər sisteminin ən mühüm subyektlərindən biri olduğundan milli ərzaq bazarının ayrıca, yəni təcrid olunmuş şəkildə fəaliyyət göstərdiyini iddia etmək mümkün deyildir. Məhz bu aspektdən yanaşdıqda ərzaq bazarında tarazlığın təmin edilməsinə bir sıra faktorlar təsir edir ki, həmin faktorları da aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

Ərzaq bazarını ayrılıqda təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün olmadığından ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir göstərən amilləri əsas etibarilə iki qrupda təsnifləşdirmək mümkündür. Onlardan birincisi, ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir göstərən daxili amillər; ikincisi isə ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir göstərən xarici amilləri qruplaşdırmaqdır. Ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir edən daxili amillərə, ilk növbədə, iqtisadi amilləri, hüquqi tənzimləmə komponentlərini, sosial komponentləri, texnoloji amilləri və təşkilati amilləri aid etmək mümkündür. Ərzaq bazarında tarazlığın təmin edilməsinə ətraf xarici mühit amilləri də əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, ölkə beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunduğundan milli iqtisadiyyat beynəlxalq münasibətlər sisteminin mühüm subyektlərindən biri olduğundan beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklər, təbii ki, ölkənin milli iqtisadiyyatına və o cümlədən onun mühüm və strateji əhəmiyyətli sahəsi kimi kənd təsərrüfatına, aqrar ərzaq kompleksinə və o cümlədən ərzaq bazarına əhəmiyyətli dərəcədə təsir göstərmiş olur. Məhz belə bir şəraitdə ərzaq bazarında tarazlığın təmin edilməsinə yönəlik amillər içərisində xarici mühit amillərini də aid etmək düzgün olardı.

Ərzaq bazarında tarazlığın təmin edilməsinə təsir göstərən xarici mühit amilləri, ilk növbədə, beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklərlə sıx bağlıdır. Beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklər ərzaq bazarındakı tarazlığın səviyyəsinə əhəmiyyəli dərəcədə təsir göstərir. Bu təsirin əhəmiyyətli və ya əhəmiyyətsiz dərəcədə olması isə, ilk növbədə, ərzaq bazarında yerli əmtəə istehsalçılarının xüsusi çəkisinin hansı dərəcədə olmasından bilavasitə asılıdır. Nəzərə almaq lazımdır ki, ərzaq bazarında yerli əmtəə istehsalçılarının xüsusi çəkisinin yüksək olması, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca meyarı kimi yerli ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksək olduğu şəraitdə, təbii ki, ərzaq bazarı xarici mühit faktorlarının təsirinə daha az məruz qalır və ərzaq bazarının mövcud rəqabətədavamlılıq xüsusiyyəti, o cümlədən yerli özünütəminetmə səviyyəsinin yüksək olması səbəbindən beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklərdən nisbətən daha az asılı olur.

## İstifadə olunmuş ədəbiyyat:

1.«Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı»nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 2 mart 2001-ci il

2.A.F.Abbasov. Ərzaq təhlükəsizliyi. Bakı-2007, 602 s.